**“Maarifpərvərlik”**
**Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi**

**“Education”**
**Public Support Association of Youth of Azerbaijan (EPSAYA) public union**

**Azərbaycan Respublikası, Lənkəran şəhəri, AZ 4200, Heydər Əliyev prospekti 3,**
**İnternet səhifəsi: www.epsaya.az, E-mail: info@epsaya.az, Telefon: (0 51) 814 44 42**

# PRES-RELİZ – 2022

MAGİYA ictimai birliyi 2022-ci il ərzində müxtəlif hökümət, qeyri-hökümət və beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq çərçivəsində aşağıdakı layihələri (tədbirləri) uğurla həyata keçirmişdir:

1. MAGİYA ictimai birliyi 25-27 mart 2022-ci il tarixlərində Lənkəran şəhərində yerləşən “Lüks Lənkəran” otelində Azərbaycanın 19 yaşayış məntəqəsindən (Astara, Bakı, Beyləqan, Biləsuvar, Cəbrayıl, Göyçay, Göygöl, Hacıqabul, Xaçmaz, İsmayıllı, Lənkəran, Masallı, Saatlı, Sumqayıt, Şirvan, Tovuz, Yardımlı, Yevlax, Zəngilan) olan 25 nəfər gənc üçün Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə (8900 manat) **“Sağlam ailə sağlam cəmiyyətin təməlidir”** mövzusunda 3 günlük nəzəri-praktik konfrans (panel müzakirələr) təşkil etmişdir. Nəzəri-praktik konfransda 14 nəfər qız və 11 nəfər oğlan iştirak etmişdir. Qeyd edək ki, nəzəri-praktik konfransdan öncə Azərbaycanın 37 müxtəlif yaşayış məntəqəsindən (Ağdaş, Ağstafa, Astara, Bakı, Beyləqan, Bərdə, Biləsuvar, Cəbrayıl, Daşkəsən, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Göygöl, Hacıqabul, Xaçmaz, İmişli, İsmayıllı, Qazax, Qəbələ, Lənkəran, Masallı, Mingəçevir, Naxçıvan, Saatlı, Samux, Sumqayıt, Şəki, Şəmkir, Şirvan, Tovuz, Ucar, Yardımlı, Yevlax, Zaqatala, Zəngilan, Zərdab) 85 nəfər gənc ərizəçi (58 qız və 27 oğlan) tədbirdə iştirak etmək üçün təşkilata müraciət etmişdir. Təşkilatın heyətindən başqa nəzəri-praktik konfransda qonaq qismində Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəis müavini cənab Teymur Babazadə və Lənkəran rayon Ağsaqqallar Şurasının üzvü Lənkəran şəhər sakini 83 yaşlı ziyalı ailə başçısı Yaşar Məmmədov, psixoloq qismində “LOQOS” Psixoloji və Nitq İnkişaf Mərkəzinin Lənkəran filialının mütəxəssisi cənab Fərrux Əliyev, ekspert qismində isə Ombudsman Aparatının Cəlilabad Regional Mərkəzinin rəhbəri cənab Ziya İsmayılov iştirak edərək özlərinin şəxsi bilik və təcrübələrini gənclərlə bölüşmüş və iştirakçı gənclərin suallarını cavablandırmışlar. Nəzəri-praktik konfransda heyətlə iştirakçılar arasında ailə, qadın, uşaq və gender məsələləri sahəsində bir çox mövzular – ***“Azərbaycan xalqının zəngin milli-mənəvi dəyərləri və adət-ənənələri: multikulturalizm və multietnosluq, Azərbaycanda milli-mənəvi dəyərlər və müasirlik: qloballaşma və modernləşmə dövründə milli ailə dəyərləri, Azərbaycanda klassik və müasir ailə dəyərləri: Dəyişək, yoxsa qoruyaq? Nikahların və boşanmaların mövcud statistikası, Vulqar ənənələr (sevən gənclərə və gənc ailələrə valideynlərin yersiz müdaxilələri, aktuallığını itirmiş adətlər, boşanmalara rəvac verən ənənələr) və onların doğurduğu sosial risklər, Əxlaq normaları: xüsusiyyətləri, növləri və nümunələri, Əxlaqi keyfiyyətlər – insanlararası münasibətlər və reallıq, Hüquqi dövlətdə əxlaq və azadlıq məfhumları/prinsipləri, Ailə dəyərlərinin qorunmasında gender bərabərliyi – “Xoşbəxt ailə modeli”, Etik davranış qaydaları, Etika və gender: sosial-əxlaqi davranış tərzləri, Aidiyyəti qurumlara göndərilməkdən ötrü yeni ailə quran gənclərin və ya gənc ailələrin dağılmasının qarşısını almağa yönələn müvafiq təkliflər paketinin hazırlanması”*** müzakirə olunmuşdur. Nəzəri-praktik konfransın keçirilməsi zamanı heyət təqdimatlar, beyin həmləsi, fokus qrup müzakirələri, interaktiv qrup işləri, debatlar və enercayzerlər kimi bir çox metodlarından geniş istifadə etmiş, eləcə də, bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Nəzəri-praktik konfransın sonunda bütün iştirakçılara sertifikatlar və müvafiq təqdimatlar təqdim edilmişdir. Sonda iştirakçılar və

təşkilatçılar, eləcə də qonaqlar və ekspertlər layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə gənclər üçün belə bir aktual layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər. Qeyd edək ki, layihənin məqsədi respublikada ailə, qadın, uşaq və gender məsələlərinin təbliği sahəsində gənclərin, xüsusən də, yeni ailə quran gənc ailələrin ölkə miqyasında maarifləndirilməsini və məlumatlandırılmasını təşkil etmək, habelə ailələrin dağılmasına səbəb olan müxtəlif amillərin (gənc ailələrə valideynlərin və digər qohumların yersiz müdaxilələri, boşanmalara rəvac verən aktuallığını itirmiş adətlər və s.) aradan qaldırılması istiqamətində profilaktik tədbirlər həyata keçirməkdən ibarət olmuşdur.





2. MAGİYA ictimai birliyi 23-25 avqust 2022-ci il tarixlərində Lənkəran şəhərində yerləşən Lənkəran Gənclər Evində və 04 sentyabr 2022-ci il tarixlərində Bakı şəhərində yerləşən Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının ofisində 20 nəfər gənc üçün Avropa Şurasının maliyyə dəstəyi ilə (6455 manat) **“Azərbaycanda sosial hüquqların təşviqində gənc işçilərin sosial bacarıqlarının artırılması”** mövzusunda 3 və 1 günlük təlim kursları təşkil etmişdir. Təlim kurslarında 40 nəfərdən çox qız və oğlan iştirak etmişdir. Təşkilatın heyətindən başqa təlim kurslarında qonaq qismində Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəisi cənab Teymur Babazadə də iştirak edərək özünün şəxsi bilik və təcrübələrini gənclərlə bölüşmüş və iştirakçı gənclərin suallarını cavablandırmışdır. Təlim kurslarında heyətlə iştirakçılar arasında ***sosial hüquqlar*** sahəsində bir çox mövzular müzakirə olunmuşdur. Təlim kurslarının keçirilməsi zamanı heyət təqdimatlar, beyin həmləsi, fokus qrup müzakirələri, interaktiv qrup işləri, debatlar və enercayzerlər kimi bir çox metodlarından geniş istifadə etmiş, eləcə də, bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Sonda iştirakçılar və təşkilatçılar, eləcə də qonaqlar layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Avropa Şurasına gənclər üçün belə bir aktual layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər. Qeyd edək ki, layihənin məqsədi ölkəmizdə sosial hüquqların təşviqində gənclərin mövcud bilik, bacarıq və təcrübələrini daha da inkişaf etdirməkdən ibarət olmuşdur.

 

3. MAGİYA ictimai birliyi 21-23 oktyabr 2022-ci il tarixlərində Lənkəran şəhərində yerləşən "Lüks Lənkəran" otelində Azərbaycanın 12 yaşayış məntəqəsindən (Ağdam, Ağdaş, Bakı, Cəlilabad, Füzuli, Gəncə, İsmayıllı, Lənkəran, Sabirabad, Şamaxı, Şəki, Zərdab) olan 25 nəfər gənc üçün Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə (8000 manat) **"Azərbaycanda ailə institutu: problemlər və perspektivlər"** mövzusunda 3 günlük nəzəri-praktik konfrans təşkil etmişdir. Nəzəri-praktik konfransda 16 nəfər qız və 9 nəfər oğlan iştirak etmişdir. Qeyd edək ki, nəzəri-praktik konfransdan öncə Azərbaycanın 42 müxtəlif yaşayış məntəqəsindən (Abşeron, Ağdam, Ağdaş, Astara, Bakı, Balakən, Beyləqan, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Füzuli, Gəncə, Goranboy, Göyçay, Xaçmaz, İsmayıllı, Kəlbəcər, Kürdəmir, Qax, Qazax, Qəbələ, Quba, Lerik, Lənkəran, Masallı, Mingəçevir, Naxçıvan, Neftçala, Saatlı, Sabirabad, Salyan, Sumqayıt, Şamaxı, Şəki, Şəmkir, Şuşa, Tovuz, Yardımlı, Yevlax, Zəngilan, Zərdab) 158 nəfər gənc ərizəçi (91 qız və 67 oğlan) tədbirdə iştirak etmək üçün təşkilata müraciət etmişdir. Təşkilatın heyətindən başqa nəzəri-praktik konfransda qonaq qismində Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəisi cənab Teymur Babazadə, psixoloq qismində "LOQOS" Psixoloji və Nitq İnkişaf Mərkəzinin Lənkəran filialının mütəxəssisi cənab Fərrux Əliyev, ekspert qismində isə Lənkəran Rayon Vəkil Bürosunun vəkili cənab Zaur Qasımov iştirak edərək özlərinin şəxsi bilik və təcrübələrini gənclərlə bölüşmüş və iştirakçı gənclərin suallarını cavablandırmışlar. Nəzəri-praktik konfransda heyətlə iştirakçılar arasında ailə, qadın, uşaq və gender məsələləri sahəsində bir çox mövzular – ***"Azərbaycanda ailə institutu və adət-ənənələr, Azərbaycanda klassik və müasir ailə dəyərləri, Ailə və etika konsepsiyası, Azərbaycanda nikahlar və boşanmalar: mövcud vəziyyət və statistika, Qadın hüquqları və milli qanunvericilik, Məişət zorakılığı və gender əsaslı zorakılıq – Qanunvericilik, Qadınlara qarşı zorakılıq və şəxsiyyətin sosial-psixoloji problemləri, Əxlaq konsepsiyası, Ailədə və cəmiyyətdə uşaqlar, uşaqlara qarşı qısnama və ayrı-seçkilik, Uşaq əməyi və uşaq əməyinin istismarı, Uşaqlara qarşı zorakılıq - BMT-nin Uşaq Hüquqları Konvensiyası, Gender və gender bərabərliyi - stereotip və gender stereotipləri"*** müzakirə olunmuşdur. Nəzəri-praktik konfransın keçirilməsi zamanı heyət müxtəlif üsullardan təqdimatlar, beyin həmləsi, debatlar, fokus qrup müzakirələri, interaktiv qrup işləri, enercayzerlər, iştirakçılarla və mütəxəsislərlə qarşılıqlı fikir mübadiləsi kimi fərqli metodlardan geniş istifadə etmiş, eləcə də bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Nəzəri-praktik konfransın sonunda bütün iştirakçılara müvafiq təqdimatlar təqdim edilmişdir. Sonda iştirakçılar və təşkilatçılar, eləcə də qonaqlar və ekspertlər layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə gənclər üçün belə bir aktual layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər. Qeyd edək ki, layihənin məqsədi respublikada ailə, qadın, uşaq və gender məsələlərinin aktuallığını gündəmə gətirməklə cəmiyyətimizdə ailə dəyərlərinin təşviqi və valideyn məsuliyyətinin artırılmasının təbliği sahəsində gənclərin, xüsusilə də, gənc ailələrin ölkə miqyasında maarifləndirilməsini və məlumatlandırılmasını təşkil etmək, habelə ailələrin dağılmasına və

boşanmaların artmasına səbəb olan məişət zorakılığı ilə mübarizəni gücləndirməkdən ötrü bu istiqamətdə profilaktik və preventiv tədbirlərin həyata keçirilməsindən ibarət olmuşdur.






4. 01 noyabr 2022-ci il tarixində Lənkəran şəhər Gənclər və İdman İdarəsinin dəstəyi ilə ***Lənkəran şəhərində*** MAGİYA ictimai birliyi tərəfindən **"COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində gənclər və gənclər vasitəsilə əhali arasında sağlam həyat tərzinin təbliği"** adlı layihə çərçivəsində ictimai aksiya keçirilmişdir. COVİD-19 pandemiyası ilə mübarizədə əhali arasında sağlam həyat tərzinin təbliğini özündə ehtiva edən layihə çərçivəsində Lənkəran rayonunda 3 nəfər 18-29 yaşarası könüllü gənc müəyyən edilmiş, onlar üçün pandemiya dövründə davranış qaydalarına dair təlimat hazırlanmış, aidiyyəti sahədə bukletlər də daxil olmaqla, həmin könüllülər zəruri gigiyenik vasitələr (dezinfeksiyaedici spirt) və tibbi ləvazimatlarla (maska) təmin olunmuşdur. Təlimatlandırılmış və zəruri materiallarla təchiz edilmiş gənclər tərəfindən Lənkəran rayonundakı ictimai yerlərdə sakinlərə 650 ədəd buklet, 100 ədəd tibbi maska və 25 ədəd dezinfeksiyaedici spirt paylanılmaqla, əhali arasında geniş maarifləndirmə və məlumatlandırma işləri aparılmışdır. Sonda layihədə könüllü fəaliyyət göstərən 3 nəfər gənc ictimai birlik tərəfindən müvafiq sertifikatlarla təltif olunmuşdur. Qeyd edək ki, layihə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin 5826,40 (beş min səkkiz yüz iyirmi altı manat qırx qəpik) manatlıq maliyyə dəstəyi ilə icra olunur. Layihənin məqsədi COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində gəncləri və gənclər vasitəsilə ictimaiyyəti məlumatlandırmaq, onları zəruri gigiyenik vasitələr və tibbi ləvazimatlarla, habelə maarifləndirici materiallarla təmin etmək və ictimai yerlərdə sağlam həyat tərzini geniş şəkildə təbliğ etməkdən ibarətdir. Layihənin müddəti 3 ay olmaqla, 12 sentyabr – 12 dekabr 2022-ci il tarixlərini əhatə edir.







5. 03 noyabr 2022-ci il tarixində Cəlilabad rayon Gənclər və İdman İdarəsinin dəstəyi ilə ***Cəlilabad şəhərində*** MAGİYA ictimai birliyi tərəfindən **"COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində gənclər**

**və gənclər vasitəsilə əhali arasında sağlam həyat tərzinin təbliği”** adlı layihə çərçivəsində ictimai aksiya keçirilmişdir. COVİD-19 pandemiyası ilə mübarizədə əhali arasında sağlam həyat tərzinin təbliğini özündə ehtiva edən layihə çərçivəsində Cəlilabad rayonunda 3 nəfər 18-29 yaşarası könüllü gənc müəyyən edilmiş, onlar üçün pandemiya dövründə davranış qaydalarına dair təlimat hazırlanmış, aidiyyəti sahədə bukletlər də daxil olmaqla, həmin könüllülər zəruri gigiyenik vasitələr (dezinfeksiyaedici spirt) və tibbi ləvazimatlarla (maska) təmin olunmuşdur. Təlimatlandırılmış və zəruri materiallarla təchiz edilmiş gənclər tərəfindən Cəlilabad rayonundakı ictimai yerlərdə sakinlərə 650 ədəd buklet, 100 ədəd tibbi maska və 25 ədəd dezinfeksiyaedici spirt paylanılmaqla, əhali arasında geniş maarifləndirmə və məlumatlandırma işləri aparılmışdır. Sonda layihədə könüllü fəaliyyət göstərən 3 nəfər gənc ictimai birlik tərəfindən müvafiq sertifikatlarla təltif olunmuşdur. Qeyd edək ki, layihə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin 5826,40 (beş min səkkiz yüz iyirmi altı manat qırx qəpik) manatlıq maliyyə dəstəyi ilə icra olunur. Layihənin məqsədi COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində gəncləri və gənclər vasitəsilə ictimaiyyəti məlumatlandırmaq, onları zəruri gigiyenik vasitələr və tibbi ləvazimatlarla, habelə maarifləndirici materiallarla təmin etmək və ictimai yerlərdə sağlam həyat tərzini geniş şəkildə təbliğ etməkdən ibarətdir. Layihənin müddəti 3 ay olmaqla, 12 sentyabr – 12 dekabr 2022-ci il tarixlərini əhatə edir.







6. 14 noyabr 2022-ci il tarixində Masallı rayon Gənclər və İdman İdarəsinin dəstəyi ilə ***Masallı şəhərində*** MAGİYA ictimai birliyi tərəfindən **“COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində gənclər və gənclər vasitəsilə əhali arasında sağlam həyat tərzinin təbliği”** adlı layihə çərçivəsində ictimai aksiya keçirilmişdir. COVİD-19 pandemiyası ilə mübarizədə əhali arasında sağlam həyat tərzinin təbliğini özündə ehtiva edən layihə çərçivəsində Masallı rayonunda 3 nəfər 18-29 yaşarası könüllü gənc müəyyən edilmiş, onlar üçün pandemiya dövründə davranış qaydalarına dair təlimat hazırlanmış, aidiyyəti sahədə bukletlər də daxil olmaqla, həmin könüllülər zəruri gigiyenik vasitələr (dezinfeksiyaedici spirt) və tibbi ləvazimatlarla (maska) təmin olunmuşdur. Təlimatlandırılmış və zəruri materiallarla təchiz edilmiş gənclər tərəfindən Masallı rayonundakı ictimai yerlərdə sakinlərə 650 ədəd buklet, 100 ədəd tibbi maska və 25 ədəd dezinfeksiyaedici spirt paylanılmaqla, əhali arasında geniş maarifləndirmə və məlumatlandırma işləri aparılmışdır. Sonda layihədə könüllü fəaliyyət göstərən 3 nəfər gənc ictimai birlik tərəfindən müvafiq sertifikatlarla təltif olunmuşdur. Qeyd edək ki, layihə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin 5826,40 (beş min səkkiz yüz iyirmi altı manat qırx qəpik) manatlıq maliyyə dəstəyi ilə icra olunur. Layihənin məqsədi COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində gəncləri və gənclər vasitəsilə ictimaiyyəti məlumatlandırmaq, onları zəruri gigiyenik vasitələr və tibbi ləvazimatlarla, habelə maarifləndirici materiallarla təmin etmək və ictimai yerlərdə sağlam həyat tərzini geniş şəkildə təbliğ etməkdən ibarətdir. Layihənin müddəti 3 ay olmaqla, 12 sentyabr – 12 dekabr 2022-ci il tarixlərini əhatə edir.







7. 15 noyabr 2022-ci il tarixində Astara rayon Gənclər və İdman İdarəsinin dəstəyi ilə ***Astara şəhərində*** MAGİYA ictimai birliyi tərəfindən **"COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində gənclər və gənclər vasitəsilə əhali arasında sağlam həyat tərzinin təbliği"** adlı layihə çərçivəsində ictimai aksiya keçirilmişdir. COVİD-19 pandemiyası ilə mübarizədə əhali arasında sağlam həyat tərzinin təbliğini özündə ehtiva edən layihə çərçivəsində Astara rayonunda 3 nəfər 18-29 yaşarası könüllü gənc müəyyən edilmiş, onlar üçün pandemiya dövründə davranış qaydalarına dair təlimat hazırlanmış, aidiyyəti sahədə bukletlər də daxil olmaqla, həmin könüllülər zəruri gigiyenik vasitələr (dezinfeksiyaedici spirt) və tibbi ləvazimatlarla (maska) təmin olunmuşdur. Təlimatlandırılmış və zəruri materiallarla təchiz edilmiş gənclər tərəfindən Astara rayonundakı ictimai yerlərdə sakinlərə 650 ədəd buklet, 100 ədəd tibbi maska və 25 ədəd dezinfeksiyaedici spirt paylanılmaqla, əhali arasında geniş maarifləndirmə və məlumatlandırma işləri aparılmışdır. Sonda layihədə könüllü fəaliyyət göstərən 3 nəfər gənc ictimai birlik tərəfindən müvafiq sertifikatlarla təltif olunmuşdur. Qeyd edək ki, layihə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin 5826,40 (beş min səkkiz yüz iyirmi altı manat qırx qəpik) manatlıq maliyyə dəstəyi ilə icra olunur. Layihənin məqsədi COVİD-19 xəstəliyi ilə mübarizə zəmnində gəncləri və gənclər vasitəsilə ictimaiyyəti məlumatlandırmaq, onları zəruri gigiyenik vasitələr və tibbi ləvazimatlarla, habelə maarifləndirici materiallarla təmin etmək və ictimai yerlərdə sağlam həyat tərzini geniş şəkildə təbliğ etməkdən ibarətdir. Layihənin müddəti 3 ay olmaqla, 12 sentyabr – 12 dekabr 2022-ci il tarixlərini əhatə edir.






*MAGİYA ictimai birliyinin Mətbuat Katibliyi*

*30 dekabr, 2022-ci il*